

Oqtay ISMAYILLI

# "NƏSİMİ ŞAGİRDİYƏM" silsiləsindən

## YALAN

Varlığın mərkəziyəm, qıraq olmağım yalan,
Günəşlər günəşiyəm, çıraq olmağım yalan.

Bütün hikmətlərini mənə yazıb İlahi,
Varlıq kitabı mənəm, varaq olmağım yalan.

Haqqı dərk edib bildim, əbədiyyət əhliyəm,
O evin sahibiyəm, qonaq olmağım yalan.

Görünən hər nə varsa, məndədir, kənar deyil,
İrəli-geri, alt-üst, sol-sağ olmağım yalan.

Ulduzlar bağrımdakı kiçik qığılcımlardır,
Sahilsiz bir ümmanam, bulaq olmağım yalan.

Həyat ağacında sən sanma ki, bir yarpağam,
O ağac mən özüməm, budaq olmağım yalan.

Ali bir sevda ilə yetib ali məqama,
Tamam nura dönmüşəm, torpaq olmağım yalan.

## NƏSİMİ HƏVƏSİ

Ömür adlı bu nemət Allahın töhfəsidir,
Aldığımız hər nəfəs Allahın nəfəsidir.

Ey insan, bir behişt say bu fani aləmi də,
Yer üzü kainatın ən dilbər guşəsidir.

Heç kimin ruzisinə göz dikmə ki, dünyada
Hamının bol payı var, Rəbbimin süfrəsidir.

Hər bəndə dərk eləsə həqiqi məqamını,
Görər o, kamilliyin ən uca zirvəsidir.

İçib nəşələnirəm hey hikmət şərabını,
Ruhumdakı bu həvəs Nəsimi həvəsidir.

## BİZƏ GÖRƏDİR ANCAQ

Dünyanın qurulması bizə görədir ancaq,
Varlığın var olması bizə görədir ancaq.

İşığın qaranlıqdan doğulub böyüməsi,
Yerin nurla dolması bizə görədir ancaq.

Torpaqla su gör necə canımızda dirilib,
Cansızın can bulması bizə görədir ancaq.

Bulanıq bataqlıqtək qalardı əbədiyyət,
Zamanın durulması bizə görədir ancaq.

Heçə dönüb gedərdi həyat indiyə qədər,
Aləmlərin qalması bizə görədir ancaq.

Gərək deyil Tanrıya göylərin çılçırağı,
Günəşin nur salması bizə görədir ancaq.

Bəndəni şad etməkçün bəzənib bu kainat,
Hər an min rəng alması bizə görədir ancaq.

## KAİNATA SIĞMAYAN AD-SAN

Dinlə, yer-göy sənə eləyir bəyan:
Xətrinçün olubdur dünyalar əyan.

Sənsiz heç zərrə də yaradılmazdı,
Zülmətin bağrından doğulmazdı dan.

Hikmət pətəyidir külli-kainat,
Könlünün şəhdilə dolmalıdır şan.

İstəyir qalxasan ərşin fövqünə
Aləmləri qat-qat üst-üstə qoyan.

Şahlığın keçməsin Şeytan əlinə,
Səni məğlub edən yuxudan oyan.

Böyükdür ən böyük kəhkaşandan da
Özünü Tanrıdan bir zərrə sayan.

Sənə də Rəbbimtək düzlük yaraşır,
Ancaq həqiqətdir şəninə şayan.

Tərk et, nəyin varsa sevgidən başqa,
Mələkdən də uca məqamda dayan.

Fəxr elə ki, ulu insandır adın,
Sonsuz kainata sığmır bu ad-san.

## ÜSTƏLİK

İnamı ömür bildim, gümanı da üstəlik,
Sıxdım gözümə nuru, dumanı da üstəlik.

Həqiqət bulaqları yanğımı soyutmayır,
Gərək içim səbirlə ümmanı da üstəlik.

Xeyir şərə bənzəyir, şər xeyirə, çaşmışam,
Kafirliyi tərk etdim, imanı da üstəlik.

Hər şey bəndə üçündür, kiməm ki, seçim edim?!
Xoşladım yaranı da, dərmanı da üstəlik.

Hər əməl qoyulacaq tərəziyə məhşərdə,
Saxlayıram yaxşını, yamanı da üstəlik.

Bu dünyanı tərk etmək istəmirəm xoşluqla,
İtirmək istəmirəm o dünyanı üstəlik.

Yalnız Allahı sevmək adilərin işidir,
Kamil olanlar sevir insanı da üstəlik.

Zərrə ruhum qovuşub Bütövə, BİR oldu, Oqtay,
Məkanı tərk elədim, zamanı da üstəlik.

## YANIQLI XİTABAM

Düşüncə yollarında daim canlı əzabam,
Bütün suallarıma özüm şəksiz cavabam.

Gerçəyin gerçəyiyəm bəsirət sahibinə,
Cahilin nəzərində əfsanəyəm, sərabam.

Çaşqın deyiləm əsla, bac verəm hər şeytana,
Şagirdəm, müəllimən, məktəbəm, həm kitabam.

Gözlərim iki aləm, vücudum dörd ünsürdür,
Ürəyim bir kainat, yoxla, ən düz hesabam.

Eşqlə sildim könlümdən dünya tozunu tamam,
İndi varlıq mülkündə qürubsuz afitabam.

Əfsus ki, fərəhimə kölgə düşür bəndədən,
Onu cahil görəndə dözülməz iztirabam.

Sıyrıl zülmət içindən, nura can at, ey insan,
Səni ərşə səsləyən yanıqlı bir xitabam.

## SAYIRAM

Ruhu canda beşgünlük bir müsafir sayıram,
Ona sayğısızlığı əcaib sirr sayıram.

Anlamışam küfr ilə savabın hər fərqini,
İnsanı kim sevmirsə, onu kafir sayıram.

Bunun ayağın öpüb, onu ayaqlamıram,
Şahla qulu bir bilib, bir görüb, bir sayıram.

Allah bəndələrinə fərq qoymayan müdrikin
Evini ziyarətgah, özünü pir sayıram.

Fikri, dili, əməli bir olan xeyirxahı
Yerlə göy arasında şanlı səfir sayıram.

## BƏYƏNİR

Kim deyir, Allah ancaq müsəlmanı bəyənir,
Pakdır varlığın şahı, pak insanı bəyənir.

Aşkar qurban, ibadət bəndəyə xoşdur ancaq,
Rəbbin səndəki pünhan saf vicdanı bəyənir.

Öyünmə kilsə ilə, məscidlə, sinaqoqla,
Könlündə imarəttək bir imanı bəyənir.

Quruca pətək kimi görünən vücudu yox,
İçində mərifətlə dolu şanı bəyənir.

Zülmət parçası bilir özü üçün yananı,
El yolunda çıraqtək alışanı bəyənir.

## HEYRANIYAM

Doymuram ülfətindən, insanın heyranıyam,
İnsanın surətində Rəhmanın heyranıyam.

Mən ancaq "sev" sözünə mütiyəm, ey hakimlər,
Qul da versə, bax belə fərmanın heyranıyam.

Altında dünya boyda eşq yuvası qurulan,
Üstündə Tanrı gülən səmanın heyranıyam.

Faninin ağaları viran edir hər şeyi,
Rəbbin yaradacağı sahmanın heyranıyam.

Məhşərdə tanınacaq hər kəs olduğu kimi,
Güzgümüzə dönəcək zamanın heyranıyam.

Cənnət nemətlərini dadmaq dadlı arzumdur,
Allahın edəcəyi ehsanın heyranıyam.

## TUTUB

Yerdə əbədiyyət yox, onun yerin an tutub,
Cansız məzarıstanlar tortək saysız can tutub.

İblisin ov yerinə çevrilibdir dünyamız,
Ona görə səadət üzün ondan yan tutub.

Sıxılmış pəncəsində əzilir bülbül ruhum,
Tərk etmir həyat məni, bu qansızı qan tutub.

Qeybdə nur kimiydim mələklərin içində,
Fanidə qızılgüləm, dövrəmi tikan tutub.

Könlüm necə sığır, ah, bir zərrəlik cahana?
Sonsuza bax, məhdudun içində məkan tutub.

## KİÇİKDİR

Eşq ümmanı olsa da, ürək özü kiçikdir,
Bəsdir bir kainata, demə, közü kiçikdir.

Sonsuzdan da sonsuzdur kamil insan batini,
Cisminə ki baxırsan, bəndə, düzü, kiçikdir.

"Böyük" sözü böyükdür insan haqqında desək,
Allaha aid etsək, "böyük" sözü kiçikdir.

Balaca səccadədir Rəbbin önündə torpaq,
Ona səcdə qılmaqçün bu Yer üzü kiçikdir.

Rəbbimi bəsirətlə seyr etməkdən doymuram,
Allahı necə görər, insan gözü kiçikdir.

## ALLAHIN SÖZÜ DEYİLMİ?

Gecənin zülməti, gündüzün nuru
Bizim duyğuların izi deyilmi?
Gör necə sirlidir, necə də duru
Səma pak bəndənin üzü deyilmi?

Tanrıdan kənar şey yoxdur aləmdə,
Varlığı topla, bax: Allahdır cəmdə.
Allahın zərrəsi Allahdır həm də,
Ocaq say-hesabsız közü deyilmi?

Şərin tufanından sovuşubdursa,
Xeyirə yavrutək yovuşubdursa,
Gedib bütövünə qovuşubdursa,
Zərrə də bütövün özü deyilmi?

Gördüyün nə varsa, diridir, diri,
Rəbbin əsəridir çünki hər biri.
Bu gün açır mənim dilimlə sirri,
Dediyim Allahın sözü deyilmi?

## YAZILAR, BİTMƏZ

Canıma çoxları qəsd edə bilər,
Ruhuma bir kimsə cəsarət etməz.
Dağlar da kiçikdir onun önündə,
Ruhumun boyuna Everest yetməz.

Mənə öz canımdan gəlir hər qada,
Onu puç həvəslər verəcək bada.
Canım çox nemətə eşq bağlasa da,
Ruhumun gözündən Allahım getməz.

Doludur kainat ümmanı nurla,
Doldurub məkanı, zamanı nurla.
Ruhumun məhəbbət romanı nurla
Əbədiyyət boyu yazılar, bitməz.

## ÇATMAZ

Səmanı ha bərk bürünsəm,
Üzümü örtməyə çatmaz.
Zülmət hər şeyi gizlədər,
Gözümü örtməyə çatmaz.

Aləmlər mənə "həqq" deyir,
Kainat ruhumu geyir.
Ağlım ərşin bürüncəyi,
Özümü örtməyə çatmaz.

Keçmişin tozu, tüstüsü
Udsa da doğrunu, düzü,
Çox qısadır yer-göy üzü,
Sözümü örtməyə çatmaz.

Elə yazdım görü-yeri,
Ölməzdir bütün sözləri.
Gətir bütün kəfənləri,
Yazımı örtməyə çatmaz.

## KÜLLƏM

On səkkiz min aləm içrə
Könlüm kimi yox bir aləm.
Ruhum daim işıq içir,
Hər kəhkəşan bir piyaləm.

Tanrı məmur etdi məni
Pak edim Yer kürəsini.
Dünyamızın çevrəsini
Tutub yeddi rəngli haləm.

Varam doqquz fələk kimi,
Ağıl açmaz çox sirrimi.
Verə bilməz təsvirimi
Bir dünyalıq kağız-qələm.

Əbədiyəm, zaman mehdir,
Hər kəlməm qövsi-qüzehdir.
Ulduzlar üstümdə şehdir,
Mən Kainat adlı güləm.

İlahidən qopdum bir dəm,
Gördüm bütövsüz heç nəyəm.
Döndüm geri, bütövdəyəm,
Haqqım var ki, deyəm: "Külləm"!

## QAYITDI

Uçdu keçmişimə ruhum bu səhər,
Canımı bətndə görüb qayıtdı.

Ordan da üz tutdu gələcəyimə,
Başdaşıma salam verib, qayıtdı.

Gəzdi şahzadətək səma bağını,
Qucaq-qucaq ulduz dərib, qayıtdı.

Hiss etdi Rəbbimin ilk sığalını,
Adəmtək önündə durub, qayıtdı.

Allahsız yerdə də ləngidi bir az,
Olub qəlbidağlı qərib, qayıtdı.

Gəzdi yana-yana cəhənnəmi də,
Qalxıb cənnətə də girib, qayıtdı.

Keçdi o birinə bu kainatdan,
Məkan sədlərini yarıb, qayıtdı.

Əvvəli, axırı qatdı bu günə,
Zaman adlı toru cırıb, qayıtdı.

Məni qovuşdurdu əbədiyyətə,
Ölümü çöp kimi qırıb, qayıtdı.

Təzədən bəzədi kəhkəşanları,
Mənim sarayımtək qurub, qayıtdı.

## BİLMƏZ

Ürəyimdən od götürür,
Şimşək mənsiz çaxa bilməz.
Damarımdan gedir suyu,
Çaylar mənsiz axa bilməz.

Allahın şah sözü mənəm,
Diriliyin özü mənəm.
Kainatın gözü mənəm,
Dünya mənsiz baxa bilməz.

Bildim gizlin mətləbləri,
Mələklərin oldum piri.
Aləmlərin bircə sirri
Mənsiz üzə çıxa bilməz.

Boyum bir az Rəbbimdən kəm,
Ayağı yer, başı göyəm.
Gerçəyin ən böyüyüyəm,
Fələk məni sıxa bilməz.

Milyon iblis girsə bəhsə,
Diz çökmərəm mən heç kəsə.
Rəbbim razılıq verməsə,
Zaman məni yıxa bilməz.

## GÜNƏŞİN BATMAZ

Uyub cahilliyə kamil ər yatmaz,
O nəqdi bu nisyə mataha satmaz.

Faninin bir barmaq balı xətrinə
Baqi həyatına zəqqutum qatmaz.

Ruhunda qalmasa bu dünya çirki,
Tanrı axirətdə atəşə atmaz.

Ölüm qorxusu var burda hər ömrün,
Ora bir ölümün əlləri çatmaz.

Çıxar da, batar da fərşdə Günəşin,
Ərşdə qürubsuzdar, Günəşin batmaz.

## DASTANAM, DASTAN

Ümmanam, dastanam, dastan,
İmanam, insanam, insan.

Nə qədər gözəlsən, Rəbbim,
Heyranam, heyranam, heyran.

Məni də yaratdın gözəl,
Seyranam, seyranam, seyran.

Sənintək aşkaram, həm də
Pünhanam, pünhanam, pünhan.

Adəmə baş əydi mələk,
Sultanam, sultanam, sultan.

İdrakın sübh yeri mənəm,
Sübhanam, sübhanam, sübhan.

Sənin pak zərrəndir ruhum,
Rəhmanam, rəhmanam, rəhman.

Yazdığın kitabdır zəkam,
Quranam, Quranam, Quran.

Yox olsam, var olmaz heç nə,
Məkanam, məkanam, məkan.

Mənimlə dövr edir dövran,
Zamanam, zamanam, zaman.